

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 dekabr 2021-ci il №95 (2603) https://mod.gov.az Qiymәti 30 qəpik

*Təlim*

## Vətən mərd oğullara əmanətdir



2020-ci il hər bir azərbaycanlının xatirəsində əbədi yaşayacaq. Prezidentimiz İlham Əliyev torpaqlarımızın düşmən işğalında olduğu illərdə hər çıxışında vurğulayırdı ki, erməni silahlı qüvvələrinin torpaqlarımıza etdiyi təcavüzlə xalqımız barışmaq fikrində deyil. Məqam yetişdi və ötən il sentyabrın 27-də Ermənistanın törətdiyi növbəti təxribatlara cavab olaraq Ali Baş Komandanın əks-hücum əmri xalqı qələbə ruhuna köklədi. Azərbaycan Ordusu düşmənin 30 ilə yaxın yaratdığı sədləri, istehkamları yararaq, yenilməz erməni ordusu, keçilməz erməni səngəri miflərini darmadağın etdi. "Dəmir yumruq" adlanan bu əməliyyat bütün dünyaya bir daha sübut etdi ki, Azərbaycan dövləti güclü dövlətdir və Azərbaycanın güclü ordusu var. Ən yeni silahla, texnikayla təchiz olunan ordumuz, yüksək nəzəri və praktiki biliklərə malik peşəkar zabitlərimiz, Vətənə əvəzsiz sevgisi olan Azərbaycan əsgəri qəsbkarları Qarabağımızdan qovdu. Ermənistan silahlı birləşmələri ərazilərimizi tərk etmək məcburiyyətində qalaraq, təslim oldu. Bu xalqla ordu birliyinin Qələbəsi, Ali Baş Komandanın Zəfəri idi.

44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun bütün qoşun növləri üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldi. Düşməni havadan məhv edən Hərbi Hava Qüvvələrinin, qarşısına çıxan canlı qüvvəni zərərsizləşdirən və azad olunan torpaqlara ilk ayaq basan motoatıcı bölmələrin, döyüş tapşırıqlarını mərdliklə icra edən Xüsusi Təyinatlı Qüvvələrin fəaliyyəti əvəzedilməzdir. Bunların arasında koordinatları yüksək dəqiqliklə hesablayan, hamını heyran edən artilleriya qoşunlarımız da var. Əlağa Şıxlinskidən bizlərə əmanət qalan artilleriyamızın erməni silahlı qüvvələrinin qorxulu kabusuna çevrilməsi Vətən müharibəsinin Qələbə ilə başa çatmasında xüsusi rol oynadı.

Torpaqlarımız azad olunduqdan sonra da təlimlər, döyüş hazırlığının təkmilləşdirilməsi prosesi hələ də davam edir. 2021-ci ilin döyüş hazırlığı planına müvafiq olaraq 28 noyabr - 01 dekabr 2021-ci il tarixlərində artilleriya bölmələrinin növbəti döyüş atışlı taktiki təlimləri keçirildi.

Təlimin ilk günündə şəxsi heyət komanda müşahidə məntəqəsinin açılması və atəş mövqeyinin tutulması tapşırıqlarını icra etdi. Eləcə də yerdəyişmə, döyüş düzülüşünə gizli açılma və maskalanma prosesi icra olundu.

Artilleriya vasitələri tələb olunan vaxtda normativlərə uyğun olaraq atəş mövqelərinə çıxarıldı, hədəflərə atəş açıldı. Qarşıya qoyulan təlim tapşırıqları müvəffəqiyyətlə icra olundu.

Keçirilən təlimdə Azərbaycan Ordusunun zəfər qazandığı Vətən müharibəsində əldə edilən bilik və təcrübələrdən istifadə olundu. Şəxsi heyətin praktiki vərdişləri təkmilləşdirildi, texnikanın döyüş əməliyyatlarına hazırlığı yoxlanıldı.

Mayor Samiq Əliyev şəxsi heyətə təlimlərin zərurətindən danışdı. "Artilleriya üçün qısa müddət ərzində atəş mövqelərini tutmaq və ümumqoşun bölməsi ilə qarşılıqlı əlaqədə olmaq, döyüş fəaliyyəti zamanı ərazinin xüsusiyyətlərini, özünün və düşmənin real döyüş imkanlarını bilmək döyüşdən qalib çıxmaq deməkdir. Azərbaycan Ordusunda bu və digər aspektlərə ciddi fikir verilir. Bunun nəticəsidir ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın azad olunması ilə yekunlaşan "Dəmir yumruq" əks-hücum əməliyyatında artilleriya qoşunlarımız silah və texnikanın döyüş imkanlarından maksimum yararlanaraq düşməni itkilərə məruz qoydu. Hər zaman olduğu kimi, bu gün də Azərbaycan Ordusu daha da təkmilləşir, müasirləşir və irəli addım atmağa davam edir", - zabit dedi.

**(Ardı 3-cü səhifədə)**



Peşəkar sürücü, vətənpərvər hərbçi

**3-cü səhifədə**



Əsgərin sağlamlığı döyüş hazırlığının tərkib hissəsidir

**4-cü səhifədə**



Şuşa ruhumuzun göyqurşağıdı!..

**6-cı səhifədə**




Mədəniyyət beşiyi Şuşa

**8-ci səhifədə**

# Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib





Dekabrın 1-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişafından və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, ölkələrimiz arasında hərbi əməkdaşlığın əsas istiqamətləri müzakirə edilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Qələbədən sonra azad edilən ərazilərdə görülən işlər barədə qonaqlara ətraflı məlumat verib.

Azərbaycan-Pakistan hərbi əməkdaşlığının inkişafından məmnunluğunu ifadə edən general-polkovnik Zakir Həsənov Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəklədiyinə, həmçinin ölkəmizə göstərilən mənəvi dəstəyə görə Pakistan rəhbərliyinə və xalqına minnətdarlığını bildirib.

Görüşdə dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığı xüsusi vurğulanıb. Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Nazir hər üç dost və qardaş ölkələrin hərbi qulluqçularının peşəkarlıq səviyyələrinin yüksəlməsində birgə təlimlərin əhəmiyyətini qeyd edərək, bu sahədə səylərin artırılmasının vacibliyini vurğulayıb.

Pakistanın müdafiə istehsalatı naziri xanım Z.Cəlal öz növbəsində Vətən müharibəsində qazanılan Qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib. Nazir Vətən müharibəsində, eləcə də noyabrın 30-da baş verən helikopter qəzası nəticəsində şəhid olanlara Allahdan rəhmət diləyib.

Xanım Z.Cəlal bu cür görüşlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından vacibliyini vurğulayıb.

Görüşdə hərbi, hərbi texniki, hərbi təhsil, hərbi istehsalat sahələrində Pakistan və Türkiyə ilə birgə ikitərəfli, o cümlədən üçtərəfli əməkdaşlıqların inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## Əlahiddə Ümumqoşun Orduda döyüş atışlı taktiki təlimlər keçirilib





"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən, Əlahiddə Ümumqoşun Ordunun artilleriya, reaktiv, minaatan və tank əleyhinə batareyaları ilə döyüş atışlı taktiki təlimlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, artilleriya bölmələri "Həyəcan" siqnalı ilə daimi dislokasiya məntəqələrindən təyinat rayonlarına hərəkət edərkən verilən müdaxiləyə əsasən hərəkətdən birbaşa döyüş düzülüşünə açılaraq döyüş tətbiqinə hazırlanıb.

Döyüş şəraitinə tam yaxınlaşdırılan şərtlərlə keçirilən taktiki təlimlərdə bölmələrin uzlaşmasına və səhra vərdişlərinin yüksəldilməsinə, taktiki və atəşlə manevrinə geniş yer verilib.

"Düşmənin qəfil hücumunun dəf edilməsi və müdafiənin əlverişli hədlər üzrə bərpası zamanı artilleriya bölmələrinin fəaliyyəti" mövzusunda keçirilən təlimlərdə müdafiə olunan bölmələrimizin atəş dəstəyi həyata keçirilib, ən uzaq hüdudlarda pilotsuz uçuş aparatları və digər kəşfiyyat vasitələri ilə aşkar edilən düşmən hədəfləri məhv edilib.

Tank təhlükəli istiqamətdə tank əleyhinə batareyalar və düzünə tuşlamaya çıxarılan toplar şərti düşmənin zirehli texnikalarını sıradan çıxarıb.

Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə batareyaları praktiki atışlardan öncə Naxçıvan Qarnizonunun Simulyasiya mərkəzində xüsusi proqram təminatına malik kompüter və məşq qurğularında müvafiq tapşırıqları icra edib. Təlimlər zamanı Vətən müharibəsində düşmən texnikalarının dəqiqliklə məhv edilməsi tapşırıqlarını uğurla yerinə yetirən Əlahiddə Ümumqoşun Ordunun tankəleyhinə bölmələrinin döyüş təcrübəsi gənc heyətlərə öyrədilib, virtual təlim meydançasında döyüş sursatı və yanacaq sərf etmədən müxtəlif şəraitdə atış və atışın idarəolunması həyata keçirilib.

Təlimlərin sonunda bölmələrin fəaliyyəti yüksək qiymətləndirilib.

## Azad olunan ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri Türkiyənin hərbi istehkamçıları ilə birgə azad olunan ərazilərimizin minalardan və partlamayan döyüş sursatlarından təmizlənməsi işlərini davam etdirir.

Hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə yollar minalardan təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqeləri istiqamətində yeni təminat yollarının çəkilməsi üzrə mühəndis işləri icra edilir.

Noyabrın 22-dən dekabrın 2-dək yalnız Tərtər-Goranboy rayonları istiqamətində yeni yolların çəkilməsi zamanı qarşı tərəfdən qurulan Ermənistan istehsalı olan 537 ədəd piyada əleyhinə, 101 ədəd tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

İşğaldan azad olunan ərazilərimizdə mühəndis-istehkam bölmələri tərəfindən bu günədək ümumilikdə 13177 hektar ərazi minalardan təmizlənib, 616 kilometr yol çəkilib, 16860 mina və partlamayan döyüş sursatı aşkar olunaraq məhv edilib.

Yaşayış məntəqələrimizin, əkin üçün yararlı olan ərazilərin minalardan və partlamayan döyüş sursatlarından təmizlənməsi işlərinə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamına verilən Türkiyənin Milli Müdafiə Nazirliyinin tabeliyində olan ASFAT AŞ şirkəti tərəfindən istehsal olunan "MEMATT" (Mexanik Mina Təmizləmə Təchizatı) texnikaları da cəlb edilib.

Bölmələrimizin azad olunan ərazilərimizdə mühəndis təminatı üzrə tədbirləri davam etdirilir.

## PUA bölmələri ilə təlim-məşq uçuşları yerinə yetirilib

Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş hazırlığı planına uyğun olaraq, Bayraktar pilotsuz uçuş aparatları (PUA) ilə təlim-məşq uçuşları icra edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, döyüş atışlı təlim-məşq uçuşlarında digər qoşun növü bölmələri ilə qarşılıqlı əlaqədə hava kəşfiyyatı aparılmaqla şərti düşmənin yerüstü hədəflərinin koordinatları təyin edilərək dəqiq zərbələrlə məhv olunub.

Aviasiya vasitələrinin uçuşları müəyyən edilən marşrutlar üzrə həyata keçirilib. Döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə PUA operatorları tapşırıqları uğurla yerinə yetiriblər.

## Hərbi qulluqçumuza hücum edən erməni əsilli şəxs zərərsizləşdirilib

Xocavənd rayonu ərazisində Azərbaycan Ordusunun mövqelərindən birində döyüş növbətçiliyi aparan hərbi qulluqçumuz dekabrın 3-ü saat 13:00 radələrində erməni əsilli şəxs tərəfindən hücuma məruz qalıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, həmin şəxs silahı ələ keçirməyə cəhd göstərib.

Hərbi qulluqçumuz havaya atəş açdıqdan sonra özünü müdafiə etmək məqsədilə ona hücum edən təxribatçını zərərsizləşdirib.

Hadisə barədə Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə birgə monitorinq mərkəzinə məlumat verilib.

Faktla bağlı araşdırma aparılır.

Səhifəni hazırladı: İsa ELDAROĞLU

# Vətən mərd oğullara əmanətdir



(Əvvəli 1-ci səhifədə)

Atışlar bitdikdən sonra top heyəti ilə tanış olduq. Leytenant Sabir Mövlamov dedi ki, vətənpərvərlik xalqımın qanındadır. - Vətən sevgisi bizlərə uşaqlıqdan aşılanıb. 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olanda Hərbi and içdik. O zaman da, indi də fikirləşirəm ki, andın sözləri mənim həyat prinsipimdir. İlkin arzumu gerçəkləşdirdikdən - leytenant rütbəsini qazandıqdan sonra yeni arzular doğdu ürəyimdə: "Torpaqlarımızın azad olunması əməliyyatında iştirak edənlərin sırasında olmaq". Şükürlər olsun ki, bu arzum da həyata keçdi. Vətənimizin ərazi bütövlüyü bərpa olundu, nankor ermənilər torpaqlarımızdan qovuldu. 44 günlük haqq savaşımızda ordumuz dünyanın ən güclü orduları sırasında tutduğu yeri layiqincə təsdiqlədi. Mən də Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik etdiyi rəşadətli Azərbaycan Ordusunun zabiti olduğumdan qürur duyuram.

Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində göstərdiyi igidliyə görə zabit Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Qarabağ" ordeni, "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



Leytenant Sabir Mövlamov əsgərlər haqqında danışmağı da unutmadı. Əsgər Əli Novruzov müharibə vaxtı topun heyət nəfəri idi. "Vətən müharibəsində komandiri ilə birlikdə döyüşüb. "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Əsgərlər Kamran Süleymanov, Nihad Eyvazzadə, Elmar Omarov, Cavanşir Mehdizadə, Kənan Quliyev və Nahid Həsənov da Əli ilə həmfikir olduqlarını bildirdilər. Komandirlərinin peşəkarlıq və qayğıkeşliyindən danışdılar.

Həmsöhbətimin fikirləri, üzlərindəki məğrurluq, gözlərinin dərinliyində parlayan Qələbə sevinci və bu qələbəni bizlərə yaşadan döyüş əzmi göstərir ki, Vətən mərd oğullara əmanətdir.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Bakıda NATO-nun təlim kursu keçirilib



Müdafiə Nazirliyinin NATO ilə 2021-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun Brunssumda (Niderland Krallığı) yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil təlim qrupu tərəfindən "Hərbi ictimai əlaqələr" mövzusunda təlim kursu keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kursda dinləyicilərə NATO-nun media və ictimaiyyətlə birgə fəaliyyəti ilə bağlı müxtəlif sahələrdə brifinqlər təqdim olunub. Mövzuya dair fikir mübadiləsi aparılaraq praktiki qrup çalışmaları yerinə yetirilib.

Sonda dinləyicilərə sertifikatlar təqdim olunub.

# Artilleriya bölmələrində döyüş atışlı təlimlər keçirilib



2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Raket və Artilleriya Qoşunlarının bölmələrində döyüş atışlı taktiki təlimlər keçirilib.

Təlimlərdə digər qoşun növlərilə qarşılıqlı əlaqədə atəşi idarəetmə və digər suallar məşq etdirilərək komandir heyətinin çevik qərarqəbuletmə qabiliyyəti, o cümlədən hərbi qulluqçuların bilik və bacarıqları təkmilləşdirilib.

Şəxsi heyətin səhra vərdişlərinin və praktiki bacarıqlarının artırılması məqsədilə keçirilən təlimlərdə artilleriya bölmələri cəmləşmə rayonlarına çıxarılaraq təyin olunan yerlərdə atəş mövqelərini tutublar.

Bölmələr şərti düşmən hədəflərini sərrast atəş zərbələri ilə məhv edərək qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

*Nümunəvi xidmət*

# Peşəkar sürücü, vətənpərvər hərbçi

Düşmən işğalından azad olunan torpaqlarımızda ezamiyyətdə olarkən dağlıq ərazidə, kələ-kötür yollarda avtomobili ustalıqla idarə edən sürücü, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Rəşad Həsənovla yolboyu həmsöhbət olduq. Fikrini bir an belə yoldan ayırmayan Rəşad sıldırımlı qayaların arasında maşını sərbəst idarə etmək məharəti ilə vəzifəsinin öhdəsindən layiqincə gəldiyini göstərdi. Xeyli məsafəni geridə qoyub, təyin olunan nöqtəyə çatanadək öyrənirəm ki, təcrübəli sürücü Gəncə şəhərində dünyaya göz açıb. O, uzun müddətdir ordu sıralarında xidmətini uğurla davam etdirir. "Hərbi texnikanı idarə etmək yüksək dərəcədə bacarıq tələb edir", - deyərək söhbətə başladı. - Gördüyünüz bu ağır texnikaları təkcə asfalt üzərində deyil, nahamar, dağlıq ərazilərdə, ekstremal şəraitdə idarə edə bilmək əsas şərtdir. Çünki ani bir ehtiyatsızlıq və yaxud səhlənkarlıq ağır nəticə verə bilər. Buna görə sükan arxasında oturduğum zaman bütün diqqətimi yola cəmləyirəm".

- Daima avtomobilin texniki cəhətdən saz vəziyyətdə olduğunu yoxlayıram. Çünki hər an həyəcan siqnalı verilə bilər. Təyin olunan yerə vaxtında çatmaq üçün avtomobil hər zaman hazır olmalıdı. Bunun üçün də mənə təhkim olunan texnikaya daim yüksək dərəcədə qulluq göstərirəm. Avtomobili idarə edərkən istənilən an problem yarana bilər. Bu cür problemləri qısa zaman ərzində aradan qaldıra bilmək üçün onun texniki cəhətini yaxşı bilməliyəm. Buna görə daim üzərimdə çalışır, həm nəzəri, həm də praktiki biliklərimi artırıram, - çavuş Həsənov dedi. Həmsöhbətim əlavə etdi ki, peşəkar sürücü olmaq üçün nəqliyyat vasitəsi haqqında biliklərlə yanaşı, yol hərəkəti qaydalarını da yaxşı bilmək və onlara riayət etmək ən vacib şərtlərdən biridir.

- Sürücü öz səbri, məsuliyyəti, diqqəti, peşəkarlığı, təmkini ilə seçilməlidir. Hərəkətdə olduğumuz zaman ani olaraq maneələr çıxa bilər. Bu zaman sürücü yaranan hər vəziyyətdə nəqliyyat vasitəsini məharətlə idarə etməlidir. O, tək özünü



deyil, sərnişinləri də düşünməlidir, - deyə Rəşad bildirdi.

Vətən müharibəsində ona təhkim olunan avtomobili ən təhlükəli yollarda peşəkarlıqla idarə edərək döyüşçülərimizin təminatının vaxtlı-vaxtında çatdırılmasını yüksək səviyyədə təmin edib. Söhbət zamanı öyrənirəm ki, Kəlbəcər istiqamətində gedən ağır döyüşlər zamanı Rəşad mühasirəyə düşüb. O, özünü itirmədən, xüsusi peşəkarlıq və cəsarət nümayiş etdirərək çətin vəziyyətdən çıxıb, verilən tapşırığı uğurla icra edib. "Mənfurlar düşündülər ki, həmin an mən qorxub geri qayıdacam. Yalnız bölməmizə təminatı çatdırmaq üçün canımdan belə keçməyə hazır idim. Biz Azərbaycan Ordusunun hərbi qulluqçularıyıq və istənilən an doğma torpaqlarımız uğrunda canımızı verərik. Vətən müharibəsi isə bunun bariz nümunəsidir", - çavuş Rəşad Həsənov qürur hissi ilə dedi. Əlbəttə, onun kimi məğrur, qorxmaz və cəsur oğullar sayəsində Qarabağ həsrətinə son qoyuldu və erməni əsgərlərindən xalqımızın qisası alındı.

- Hər bir azərbaycanlının olduğu kimi, mənim də müqəddəs borcum Vətəni qorumaqdır, - deyə Rəşad söhbətinə davam etdi. - Ötən il sentyabrın 27-də müzəffər Ali Baş Komandanın döyüş əmri ilə borcumuzun öhdəsindən layiqincə gəldik. İllərdir erməni işğalında qalan tarixi torpaqlarımızı azad etdik. Xain düşmən gülləsinə tuş gələrək şəhadətə qovuşan silahdaşlarımızın qisasını aldıq. Qədim mədəniyyət mərkəzimiz olan Şuşa şəhərini gerçək sahibinə qaytardıq. Cəsur və vətənpərvər döyüşçülərimizin peşəkarlığı sayəsində regionun ən güclü ordusuna çevrilən Azərbaycan Ordusu cəmi 44 gün ərzində Ermənistanın yürütdüyü işğalçılıq siyasətinə son qoydu. Bununla da biz bütün dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır!

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Vətən andına sadiq dəmiryolçu



"Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayarsa, o zaman Azərbaycan Ordusunun sıralarında Vətənin Hərbi andına həmişə sadiq qalan əsgəri olacam", - deyirdi Asif Yolçu oğlu Qocayev. Vətən müharibəsi başlayanda Asif də döyüşlərə qatılır. Onun şərəfli döyüş yolu Xocavənd, Füzuli, Qubadlı, Laçın rayonlarından və Hadrut qəsəbəsindən keçir. Ağır döyüşlər zamanı yaralı əsgər yoldaşlarını xilas edir. Torpaqlarımız kənd-kənd, rayon-rayon azad olunduqca Asif daha da ruhlanır və döyüşlərdə qorxmazlığı, cəsurluğu ilə seçilir. Böyük Zəfəri ailəsi və qızları ilə birlikdə qeyd edəcəyini arzulayan Asif 44 günlük Vətən müharibəsinin son günlərində - 8 noyabrda Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalır. Vətən torpağının hər qarışı uğrunda döyüşən və şəhadətə yüksələn Asif Qocayev Gəncə Şəhidlər xiyabanında dəfn edilir. İki qız övladı - Xədicə və Məryəm Vətənə əmanət qalır.

Asif Qocayev 1991-ci il martın 1-də Gəncə şəhərində anadan olub. Gəncə şəhər 26 nömrəli tam orta məktəbdə təhsil alıb. Torpağa, Vətənə, elə, obaya bağlılığı, əməyə, zəhmətə alışqanlığı ailədən gəlir. Asif dəmiryolçu idi.

Onu da qeyd edək ki, Vətən müharibəsində 200-dən artıq dəmiryolçu fəal iştirak edib. Onlardan dördü alın tərlərini al qanları, dəmir relsləri tank izləri ilə əvəzləyib, adlarını tarixin qızıl səhifələrinə yazdıraraq şəhid olublar. Onlardan biri də Asifdir. Onu Vətən müharibəsinə doğma kollektivi yüksək əhval-ruhiyyə, təntənə ilə yola salıb. O da Vətən torpaqlarının azadlığı uğrunda son damla qanınadək döyüşəcəyinə söz verib - ön cəbhəyə yollanıb.

Həyat yoldaşı Nərmin Həsənova Asifin ötən il baş verən Tovuz döyüşlərindən sonra daha çox narahat olduğunu dedi: "Dostları və iş yoldaşları ilə görüşüb, onlara deyib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda Ali Baş Komandanın döyüş əmri olarsa, mən də döyüşə getməyə hazıram. Çox vətənpərvər insan idi. Övladlarımızı da o ruhda böyüdürdük. "Onun üçün Vətən haqqı birinci idi. Deyirdi ki, insan Vətənsiz, torpaqsız yaşaya bilməz. Biz gedək döyüşək, torpaqlarımızı azad edək. Qoy bizim övladlarımız, gələcək nəsillər azad, firavan torpaqlarımızda böyüyüb, xoşbəxt olsunlar". O, bu arzularla yaşayırdı. Çox arzulayırdı ki, Böyük Qələbəni bizimlə bir yerdə qeyd etsin. Qismət olmadı... Xalqımızın torpaq həsrətinə son qoyuldu. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Asif kimi Vətən oğullarının sayəsində torpaqlarımızdan düşmən ayağı kəsildi. Gələcək nəsillər o torpaqlarda firavan yaşayacaqlar. O zaman Asifin arzuları da gerçəkləşəcək. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə şəfa versin".

Tarix yazan oğulların sırasında adı fərəhlə çəkilən dəmiryolçu şəhid Asif Qocayev Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüş əməliyyatları zamanı göstərdiyi şücaətə və rəşadətə görə dövlət başçısının sərəncamları ilə "Cəsur döyüşçü", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Asif müqəddəs Vətən andına sadiq qaldı. İndi onun yarımçıq qalan arzularını övladları şəhid ataları ilə fəxr edərək davam etdirirlər. Vətənin şəhid övladı, şəkillərdən boylanan nurlu siman səni tanıyan dostlarının, döyüş yoldaşlarının qəlbinə köçüb. Sənin əziz xatirən daim yad olunacaq, adın isə qəlblərdə əbədi məskən quracaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Medallı igidlərimiz*

## "Vətən müharibəsində iştirak etdiyim üçün qürurluyam"

Vətən müharibəsində Azərbaycan Ordusunun sıralarında xidmət edən hərbçilərimiz üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Buna görə də düşmən məğlub edildi. 28 ildən çox erməni qəsbkarlarının işğalına məruz qalan torpaqlarımız azad olundu. Düşmənin illər uzunu möhkəmləndiyi və "keçilməz" hesab etdiyi mövqelər qısa müddətdə zabit və əsgərlərimiz tərəfindən darmadağın olundu.

İkinci Qarabağ müharibəsində erməni işğalçılarına qarşı cəsarətlə vuruşan zabitlərimizdən biri də polkovnik-leytenant Mürşüd Cümşüd oğlu Abbasovdur. "N" hərbi hissəsində olarkən Vətən müharibəsinin iştirakçısı olan zabitlə görüşdük. Söhbət zamanı onun ömür və döyüş yolu ilə yaxından tanış olduq. Öyrəndik ki, Mürşüd Abbasov 1983-cü ildə Ucar rayonunda anadan olub. 1989-cu ildə rayondakı Tofiq İsmayılov adına orta məktəbdə birinci sinfə gedib. 2000-ci ildə bu təhsil ocağını bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Burada tankçı ixtisasına yiyələnib. 2004-cü ildə hərbi təhsilini uğurla başa vurub. 2004-2005-ci illərdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit ixtisasartırma kursunu keçib. 2006-cı ildə "N" hərbi hissəsində xidmətə başlayıb. Müxtəlif hərbi hissələrdə xidmət edən zabit həmişə üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Vətən müharibəsində olduğu kimi.

- 27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı ilə başlayan İkinci Qarabağ müharibəsinin ilk günlərində Kəlbəcər istiqamətində gedən əməliyyatlara cəlb edildik, - deyə



polkovnik-leytenant Mürşüd Abbasov iştirakçısı olduğu döyüşlərdən söz açdı. - Bir müddətdən sonra zirehli texnikalarımız Füzuli rayonuna istiqamətləndi. Oktyabrın 17-də artıq biz təyin olunan yerdəydik. Füzuli rayonu uğrunda gərgin döyüşlər gedirdi. Əvvəlcə geri çəkilmək istəməyən erməni qəsbkarları Azərbaycan Ordusunun əks-həmlələri qarşısında dayana bilmədi. Döyüşlərə cəlb olunduğumuz həmin gün Füzuli rayonu işğalçılardan azad olundu. Sonra Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının azadlığı uğrunda vuruşduq. Tankçılarımız sərrast atəşlə düşmənin həm canlı, həm də döyüş texnikalarını məhv etdilər. Hərbi hissəmizin zabit və əsgərləri cəsarət və hünərlə vuruşdular. Son döyüşlərimiz Xocavənd rayonu uğrunda oldu. Noyabrın 10-da düşmən təslim olduğu üçün döyüşlər dayandı. Vətən müharibəsində iştirak etdiyimdən çox qürurluyam.

İkinci Qarabağ müharibəsində göstərdiyi cəsarət və hünərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Abbasov Mürşüd Cümşüd oğlu "İgidliyə görə" medalına layiq görülüb.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# Əsgərin sağlamlığı döyüş hazırlığının tərkib hissəsidir

İnsan üçün ən böyük sərvət sağlamlıqdır. Vətən müharibəsi Azərbaycan Ordusunda tibb xidmətinin yüksək səviyyədə olduğunu, Azərbaycan həkiminin fədakarlığını bir daha təsdiqlədi. Döyüş əməliyyatlarında şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, maddi-texniki və tibbi təminatın, sosial-məişət şəraitinin yüksək səviyyədə olması mühüm rol oynadı. Qələbəni həm də bunların vəhdəti təmin etdi.

Vətən müharibəsindən sonra Ali Baş Komandan ictimaiyyət nümayəndələri ilə görüşlərindən birində qeyd etdi ki, şəhidlərimizin sayının çox olmamasının səbəblərindən biri də məhz həkimlərdir. "Bu gün dediyiniz sözlərə qüvvət, müharibə zamanı fədakarlıq göstərən həkimlərin də fəaliyyətini biz gərək qeyd edək. Doğrudan da, həkimlər gecə-gündüz yorulmadan, o ağır şəraitdə, çətin şəraitdə öz həyatını risk altına ataraq yaralılara qulluq edirdilər".

"N" hərbi hissəsində bütün tələblərə cavab verən müasir tibbi avadanlıqlarla təchiz edilən tibb məntəqəsindən qeydlər götürərək hərbçilərimizə göstərilən xidmətlə yaxından tanış olduq.



Feldşer gizir Murad Niftaliyevlə söhbətimizdə öyrəndik ki, uzun zamandır bu sahədə xidmət edir. O, Vətən müharibəsində hərbi səhiyyənin fəaliyyətindən iftixarla danışdı. Bildirdi ki, tibb məntəqəsinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi hərtərəfli müayinə və müalicələrə imkan verir. "Xəstələrə əlverişli tibbi xidmətin göstərilməsi üçün hər cür şərait yaradılıb. Tibb məntəqəsinə müraciət edən xəstələrə müayinə metodları müasir avadanlıqlarla həyata keçirilir. Əsgərlərin sağlamlığı döyüş hazırlığının tərkib hissəsi kimi daim diqqət mərkəzindədir.

Gizir Murad Niftaliyevlə olan söhbət əsnasında öyrənirəm ki, Vətən müharibəsində Cəbrayıl və Füzuli istiqamətində döyüşüb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub.

2014-cü ildən xidmətdə olan feldşer gizir Dilqəm Qaraşov sözə, "Vətən müharibəsində biz bütün dünyaya Azərbaycan xalqının necə qüdrətli bir xalq olduğunu göstərdik", deyərək başladı. "O günlərdə tibb işçiləri qorxmadan müharibənin dəhşətli nəticələrinin aradan qaldırılması üçün çalışdılar. Peşəkar həkimlərimizin sayəsində neçə-neçə döyüşçünün həyatı xilas edildi. Ürəyi Vətən eşqi, torpaq sevgisi ilə döyünən, əllərindən gələn hər şeyi etməyə hazır olan həkimlərimiz böyük şücaət göstərdilər. Güllə yağışı altında öz vəzifəsini yerinə yetirməkdən çəkinməyən cəsur həkimlərimiz döyüşən hərbçilərimizin sağlamlığının keşiyində dayandılar. Bundan sonra da qalib ordunun sıralarında xidmətimizi layiqincə davam etdirəcəyik".

Feldşer gizir Dilqəm Qaraşov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Tibb bacıları Sənubə Hüseynova və Elza Bayramova 2018-ci ildən bu məntəqədə çalışırlar. Özlərini Vətən keşiyində duran oğullara ana-bacı bilən bu xanımların xəstələrə mehribanlığının, səmimiyyətinin, hər bir xəstəyə öz doğması kimi qulluq göstərməsinin də şahidi olduq.

Məntəqədə müalicə olunan əsgərlər Pünhan Nərimanov, Elçin Bəkirli, Ülvü Məmmədov və başqaları onlar üçün yaradılan müasir şəraitə görə minnətdarlıqlarını bildirərək həkimlərin, tibb bacılarının diqqət və qayğısından razılıq etdilər.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Mükəmməl siyasətdən doğan humanistlik

Humanistlik ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsasını təşkil etdiyindən humanizm prinsiplərinin bütün sahələr üzrə davamlı reallaşdırılması prioritet istiqamətlərdəndir. Azərbaycanda dövlət siyasətinin əsas məqsədlərindən biri insan hüquq və azadlıqlarının hərtərəfli təmin edilməsi olduğundan bu sahədə islahatlar mütəmadi həyata keçirilir və müstəsna əhəmiyyətli işlər görülür. Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu insanpərvərlik ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin bütün fəaliyyəti boyu, o cümlədən ölkəyə rəhbərlik etdiyi ilk günlərdən insanlara qarşı mərhəmətli və humanist mövqe tutması danılmaz həqiqətdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyevin "Mükəmməl siyasətdən doğan humanistlik" sərlövhəli məqaləsində əksini tapıb. Məqaləni təqdim edirik.

Sevindirici və qürurvericidir ki, böyük şəxsiyyət Heydər Əliyev xalqın tələbi ilə növbəti dəfə hakimiyyətə gəldikdən sonra hüquqi və demokratik dövlətin əsas özüllərindən biri olan insan hüquq və azadlıqlarının müdafiəsi ölkəmizdə daha etibarlı təşkil olunub, hər bir sahədə insanpərvərlik və mərhəmət prinsiplərinin rəhbər tutulması təmin edilib. Təsadüfi deyil ki, 1993-cü ilin iyunundan ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulub, onun tətbiqi məhdudlaşdırılıb, 1998-ci il fevralın 10-da isə bu cəza növü Şərqdə ilk dəfə Azərbaycanda ləğv edilib. Ulu Öndərin həyata keçirdiyi humanist siyasətdə vacib məsələlərdən biri də cinayət törədən, əməlini etiraf edən və peşman olan şəxslərin əfv edilməsi, bağışlanması olub. Ümummilli Liderin siyasi hakimiyyətə tarixi qayıdışından sonra Azərbaycan Prezidenti yanında Əfv Komissiyası yaradılıb və əfvetmə institutu bərpa olundu ki, bu da humanizmin növbəti bariz nümunəsi idi. Vurğulanmalıdır ki, 1995-2003-cü illərdə ulu öndər Heydər Əliyevin imzaladığı 32 əfv fərmanı ilə üç mindən artıq məhkum azadlığa buraxılıb. Həmçinin həmin dövrdə Ümummilli Liderin təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi 7 Amnistiya qərarı 60 mindən artıq şəxsə şamil edilib. Hazırda bu hüquqi-insanpərvər ənənələr uğurla davam etdirilir. Dahi şəxsiyyətin möhkəm təməllər üzərində əsasını qoyduğu uzaqgörən siyasətin varisliyini bütün sahələrdə dövrün tələblərinə uyğun layiqincə davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyət göstərməsini daim diqqət mərkəzində saxlayır. Səmərəli fəaliyyət göstərməklə xalq arasında yüksək nüfuz qazanan Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının gördüyü xeyirxah işlər kimliyindən asılı olmayaraq hər bir kəsə inamla və hörmətlə yanaşmanı, insanpərvərlik ideyalarının cəmiyyətdə geniş yayılmasını şərtləndirib. Son 18 ildə Prezidentin imzaladığı 35 əfv fərman və sərəncamı, böyük ürəkli insanın təşəbbüsü ilə qəbul olunan çoxsaylı amnistiya aktları on minlərlə insana sevinc bəxş edib.

Dövlətimizin başçısının dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ona ünvanlanan əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə almaqla və humanizm prinsiplərinə əsaslanaraq 2020-ci il aprelin 6-da imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı xüsusi vurğulamaq lazımdır. Qayğıkeş rəhbər İlham Əliyevin sözügedən Sərəncamla çətin günlərdə çoxsaylı ailələri sevindirməsi, yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yəni, yaşı 65-dən yuxarı olan 176 məhkumu əfv etməklə, 165 kişi və 11 qadını cəzanın çəkilməyən hissəsindən azad etməsi insan amilinə verilən yüksək dəyərin göstəricisidir. Xalq bir daha əmin oldu ki, onun hər bir nümayəndəsi kimliyindən və hansı zümrəyə aid olmasından asılı olmayaraq dövlət qayğısı ilə əhatə olunur. Müdrik liderin məhkumluq həyatı yaşayan bəzi yaşlı in-



sanları əfv etməsi həm də koronavirusla mübarizəyə töhfə oldu.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, bəşəriyyəti bürüməklə insanların həyat və sağlamlığını təhdid altına alan, dünyanın demək olar ki, hər yerində, o cümlədən inkişaf edən ölkələrdə hər gün yüzlərlə insanı cənginə keçirən və ya qurbanına çevirən koronavirus (COVID-19) pandemiyasına qarşı ölkəmizdə aparılan uğurlu mübarizə də ölkədə həyata keçirilən mükəmməl siyasətin nəticəsidir. Pandemiya sınağından məharətlə çıxmağımız dövlətimizin başçısının nə qədər müdrik, xalqımızın necə əzmkar olduğunu bir daha təsdiqləyir.

Göründüyü kimi, 1995-2021-ci illər ərzində əvvəlcə ulu öndər Heydər Əliyev, sonra isə Prezident cənab İlham Əliyev tərəfindən ümumilikdə 67 əfv fərman və sərəncamı qəbul edilib ki, bu da humanist siyasətin bariz təzahürüdür.

Hər kəsə məlumdur ki, dövlətimizin başçısının mütərəqqi siyasətinin mərkəzində insan amili dayanır. Millətinə xidməti həyat amalına çevirən örnək lider İlham Əliyev xalq qarşısında verdiyi vədləri son 18 ildə əməlləri ilə doğruldaraq hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib. Ölkə rəhbərinin mövcud gerçəklikləri operativ və obyektiv şəkildə qiymətləndirərək cəmiyyətin sosial tələbatına uyğun çevik qərarlar qəbul etməsi, vətəndaşları narahat edən məsələləri qısa zamanda həll etməsi, hər zaman xalqın içində olması, mütəmadi olaraq vətəndaşlarla bilavasitə görüşməsi, onların qayğıları ilə maraqlanması, müraciətlərinə xüsusi həssaslıqla yanaşması, ciddi problemləri ilə bağlı məsələləri nəzarətə götürməsi, üzləşdikləri bütün çətinliklərin aradan qaldırılması üçün zəruri tədbirlər görülməsini təmin etməsi, insanların maddi və sosial rifahına xidmət edən, hər hansı şəkildə vəziyyətlərini yaxşılaşdıran qərarlar verməsi, aktlar qəbul etməsi və ya belə xarakterli qərar və aktların qəbul olunması üçün təşəbbüslər göstərməsi, o cümlədən onun təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il noyabrın 5-də "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərar qəbul etməsi dövlətin və rəhbərinin xalqa olan doğma münasibətinin, hər bir vətəndaşa verdiyi yüksək dəyərin, ölkədə aparılan siyasətin qayəsini insan amilinin təşkil etməsinin təcəssümüdür.

Bütün dünyaya bəllidir ki, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 2020-ci ildə müdrik lider, qətiyyətli sərkərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımız və rəşadətli ordumuz düşmən üzərində parlaq Qələbə qazanıb, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib. Fürsətdən istifadə edib Vətən müharibəsində qəhrəmancasına həlak olan bütün şəhidlərimizə uca Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirəm.

2020-ci il sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ordumuzu mənfur düşmənin layiqli cavabını verməyə sövq etdiyindən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi və bununla da Vətən müharibəsi başladı. Böyükdən kiçiyə hər kəs İkinci Qarabağ müharibəsinin Qələbə ilə başa çatmasını qarşıya məqsəd qoydu. Dövlət başçısı İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı dillərdə əzbər olmaqla xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək mülki vətəndaşlarda mübarizə əzmi, hərbçilərimizdə isə böyük ruh yüksəkliyi yaratdı. Ermənistanın növbəti təxribatlarının qarşısını almaq və düşməni sülhə sövq etmək məqsədilə gedən 44 günlük müharibədə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə qüdrətli Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinin şücaəti hərb tariximizin qəhrəmanlıq salnaməsini yaratmağa müvəffəq oldu. Elə ilk günlərdən düşmənə sarsıdıcı zərbələr vuran qəhrəman övladların qısa zamanda ardıcıl zəfərlər qazanmaqla kəndlərimizi, qəsəbələrimizi, yaşayış məntəqələrimizi, eləcə də şəhərlərimizi, o cümlədən oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də Qubadlı və nəhayət, noyabrın 8-də Şuşa şəhərini işğaldan azad etməsi Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi. Ardınca noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər və dekabrın 1-də Laçın işğaldan azad edildi. Bununla da haqq mübarizəsi hərbi və siyasi-diplomatik qələbəmizlə başa çatdı və ədalət bərpa olundu. Qazandığımız tarixi Qələbə Müzəffər Ali Baş Komandanın mükəmməl siyasətinin və sarsılmaz qətiyyətinin, dövlətimizin qüdrətinin, Silahlı Qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsində əldə olundu.

Xüsusi vurğulanmalıdır ki, dövlətimizin başçısının ən sadiq məsləkdaşı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və yorulmaz fəaliyyəti Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbəyə də öz töhfəsini verdi. Mehriban xanım ölkəmizin ədalətli mübarizəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün vətənpərvər çağırışları ilə hər bir azərbaycanlını informasiya platformalarında uğurlu mübarizəyə səfərbər etdi. Cəbhədə döyüşən qəhrəman hərbçilərimizə, eləcə də yaralılarımıza hərtərəfli dəstəyi və duaları ilə yardımçı olan, şəhidlərimizin, o cümlədən həlak olan dinc insanlarımızın əzizlərinin ağrı-acısına şərik çıxaraq bir ana, bacı, övlad kimi doğma və qayğılı münasibətilə onları ovunduran birinci xanım xalqımıza böyük təsəlli oldu.

Vətən müharibəsində qazandığımız tarixi Qələbənin - Zəfər Gününün birinci ildönümü ərəfəsində bu Qələbənin memarı olan Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərarın qəbul olunması xalqımızın qələbə sevincinə əlavə fərəh qatdı. Ümummilli Liderimizin ölkəmizdə əsasını qoyduğu humanizm siyasətinin davamı olaraq qəbul edilən bu amnistiya aktı mərhəmətin, insanpərvərliyin və xeyirxahlığın növbəti təzahürüdür.

Bu amnistiya aktı bütün digər belə aktlardan fərqlənir. Fərq ondan ibarətdir ki, bu akt genişmiqyaslı olmaqla tətbiqi dairəsi böyükdür və həm istintaq mərhələsində, həm də məhkəmədə olan işlərə şamil olunur. Akta əsasən, amnistiya ilk dəfə ağır cinayət törədilməsinə görə verilən cəza müddətinin çəkilməyən hissəsi altı ayadək olan şəxslərə də şamil olunacaq. Preambula, 4 bölmə və 45 hissədən ibarət aktın birinci bölməsində amnistiyanın şamil edildiyi şəxslərin dairəsini müəyyən edən siyahı yer alıb. İkinci bölmədə tətbiq edilən məhdudiyyətlər nəzərdə tutulan, üçüncü və dördüncü bölmələrdə isə müvafiq olaraq aktın qüvvəyə minməsi və icra prosesi ilə bağlı məlumatlar əksini tapıb. Zəfər Günü münasibətilə hazırlanan amnistiya aktı barəsində tətbiq olunması nəzərdə tutulan şəxslərin sayına, cinayətlərin və cəzaların əhatə dairəsinə görə Azərbaycan tarixinin ən böyük amnistiyası olacaq. Amnistiya aktının 15 min nəfərdən çox insana, o cümlədən 70-dək qadına və yeniyetməyə şamil olunması gözlənilir. Amnistiya aktının icrası aidiyyəti orqanlar tərəfindən dörd ayda başa çatdırılacaq. Amnistiya aktı ilə azadlığa buraxılacaq məhkumların cəmiyyətə adaptasiyası ilə bağlı aidiyyəti qurumlar tərəfindən zəruri tədbirlər də görüləcək. Həmin şəxslər reabilitasiya və adaptasiya prosesi çərçivəsində müvafiq qurumlara müraciət edərək zəruri yardımlar ala biləcəklər.

Əminik ki, Zəfər Günü münasibətilə qəbul edilən amnistiya aktı dövlətin humanist siyasətinə, Azərbaycanda insan hüquqlarının etibarlı müdafiəsinə, haqqa-ədalətə cəmiyyətdə olan inamı daha da möhkəmləndirəcək. Sözügedən aktın şamil edildiyi şəxslər isə dövlətin onlara olan münasibətini yüksək qiymətləndirərək, baş verənlərdən nəticə çıxarmaqla, bir daha eyni və ya bənzər səhvləri təkrarlamayacaq və öz əvvəlki həyatlarına qayıdaraq, cəmiyyətin inkişafına, rifahına töhfələr verəcəklər. Göründüyü kimi, amnistiya aktının siyasi, hüquqi, iqtisadi, sosial, mənəvi və humanitar əhəmiyyəti böyükdür.

Ümumiyyətlə, müstəqillik dövründə qəbul edilən 12 amnistiya aktı 100 mindən artıq şəxsə şamil olunub. 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə dörd amnistiya aktı qəbul olunub ki, bu da 40 mindən artıq insana şamil edilib.

Amnistiya qərarı üzrə prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin vaxtında və layiqincə icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev tərəfindən noyabrın 5-də "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il 5 noyabr tarixli Qərarının icrası ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə" əmr imzalanıb. Hazırda aktın tətbiqi və əmrin icrası prokurorluq, o cümlədən hərbi prokurorluq orqanları tərəfindən uğurla təmin edilir. Həmin məsələyə gündəlik nəzarətin təmin olunması, habelə amnistiyanın tətbiqi ilə bağlı ortaya çıxa biləcək hər hansı problemin operativ həll edilməsi məqsədilə müvafiq zəruri tədbirlər də görülüb. Hərbi prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin işçilər tərəfindən vaxtında və layiqincə yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev sözügedən məsələni gündəlik diqqətində saxlayır.

Qeyd edək ki, Hərbi Prokurorluğun kollektivi ulu öndər Heydər Əliyevin mükəmməl siyasətinin və ondan doğan humanist ənənələrin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində, bütün sahələrdə, o cümlədən insan hüquq və azadlıqlarının hərtərəfli təmin edilməsi, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində onun rəhbərliyi ilə görülən böyük işlərdə yaxından iştirak edərək, qanunun aliliyinin təmin olunması, insan hüquqlarının etibarlı müdafiəsi, Silahlı Qüvvələrdə nizam-intizamın gücləndirilməsi, qanun pozuntularının qarşısının alınması və aradan qaldırılması istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artırır.

Bütün bunların, eləcə də Azərbaycan Ordusu və başqa silahlı birləşmələrlə Hərbi Prokurorluğun birgə işgüzar fəaliyyəti son illər ölkədə hərbi xidmət əleyhinə cinayətlərin və hərbi qulluqçular tərəfindən törədilən digər cinayətlərin sayının əhəmiyyətli dərəcədə azalması ilə nəticələnib. Misal üçün, 2020-ci ilin 10 ayı ilə müqayisədə 2021-ci ilin müvafiq dövründə qeydə alınan hərbi xidmət vəzifələrinin icrasından boyun qaçırma cinayətləri 34,3 faiz, vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma cinayətləri 23,5 faiz, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 49,3 faiz, qəsdən sağlamlığa ağır zərər vurma cinayətləri 28,6 faiz azalıb.

Göründüyü kimi, demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının müdafiəsinə dövlət tərəfindən hər zaman xüsusi həssaslıqla yanaşılaraq, qeyd olunan sahəyə böyük diqqət və yüksək sayğı göstərilir ki, bu da cəmiyyətimizdə humanizm ənənələrinin hərtərəfli təşəkkül tapmasına və daha da möhkəmlənməsinə rəvac verir.

Fərəhləndirici və qürurverici haldır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən sözügedən sahədə də ardıcıl uğurlar əldə olunur. Bütün bunlar da Azərbaycanın və azərbaycanlıların parlaq gələcəyini şərtləndirəcək.

*Düşüncələr*

# Şuşa ruhumuzun göyqurşağıdı!..



Payızın son ayıdı. İşğaldan azad edilən ərazilərimizdə əsgərlərin əhatəsində Vətən müharibəsindən danışırdıq. Söz sözü çəkirdi. Vətən müharibəsinə qədərki illəri də yada salırdıq...

Xarici havadarlarının siyasi və hərbi dəstəyindən bəhrələnən Ermənistan Azərbaycana qarşı işğalçılıq müharibəsinə başladı.

Ağdaban, Bağanis Ayrım, Qaradağlı, Meşəli, Xocalı faciələri Ermənistanın həm işğalçılığının, həm də dövlət olaraq faşist xarakterliyinin təsdiqi idi. Zamanında BMT-nin Təhlükəsizlik Şurası da, ATƏT-in Minsk Qrupuna daxil olan dövlətlər də Ermənistanın işğalçılığını, faşizmə meylini beynəlxalq müzakirəyə çıxartmadı. Nəticə etibarilə cəzasızlıq daha ağır nəticələrlə davam etdirildi - Azərbaycanın torpaqlarının 20 faizi işğal olundu.

1992-ci ilin mayında milli-mənəvi ruhumuza yad olanların biganəliyi Şuşanın işğalı ilə nəticələndi. Bu işğal 2020-ci il noyabrın 8-nə kimi hamımızın heysiyyətini sıxdı. Ordu da, xalq da Ali Baş Komandanın döyüş əmrini gözləyirdi. Bu gözlənti qələbəyə inam idi. Bu inam Azərbaycan əsgərinin döyüş əzminin, qələbə inamının ifadəsiyidi... Yadıma nə vaxtsa eşitdiyim bir bayatı düşür:

...Şuşa dərdi,
Nə dərdi, Şuşa dərdi.
Bizi sıxdı nar kimi
Otuz il Şuşa dərdi.

Bayatı ürəyində təpər, dizində taqət olanların hamısını döyüşə çağırırdı. Bu çağırışın ilk hay verəni Ali Baş Komandanın döyüş əmri olacaqdı. Ordu da, ictimaiyyət də döyüş əmrini Azərbaycanın işğaldan qurtuluş döyüşü bilirdi. Bu əminlik bəşəri əminliyiydi! Bu əminlik Vətənə sevgi idi. Bu əminlik şəhidlərimizin ruhunu narahatlıqdan qurtaracaqdı.

1992-ci il mayın 8-dən sonra Şuşanın dağlarını boz duman bürümüşdü. Onda məktəbli idim. Müəllimlərimizdən Şuşanın nə vaxt azad ediləcəyini soruşardıq. Müəllimlərimiz əlini çiynimizə qoyardı, "Ali Baş Komandan hücum əmri verəndə", - deyərdi. Bir-birimizə baxardıq, tez böyüməyi arzulayardıq. Böyüdük və bu şanlı günün şahidi olduq, böyük Qələbənin sevincini yaşadıq. Ali Baş Komandan 2020-ci il sentyabrın 27-də hücum əmri verdi. Vətən müharibəsi Zəfərlə başa çatdı.

Tarixi və bədii əsərlərdən oxuduqlarımın zəmanəti ilə deyirəm: Şuşanın dağlarının yamaclarında, cığırların sağında-solunda ləçəkləri şeh dolu çiçəklərin titrəyişini kim görübsə, heyran olub. Dağ da, daş da gözəllik tərənnüm edən eksponata dönüb.

28 il Şuşa od ağlayırdı və Azərbaycanı sevənlərin gündüzündəydi-gecəsindəydi, şəhidlərin ruhunun narahatlığındaydı. Məktəbli olanda da, Heydər Əliyev adına Hərbi Liseyin kursantı olanda da, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı olanda da Şuşanı bürüyən dumanın çəkilməsini, bu dumanı dağıdacaq döyüşçülərin sırasında olmağı arzulayardıq. Şuşa həmişə hər birimizin düşüncələrində olub...

Hamı Şuşanı Qarabağın tacı bilirdi, Şuşanı hamı sevirdi. Bu sevgi müqəddəs sevgi idi. Kursant yoldaşlarım kimi mən də bu müqəddəs sevginin Ali Baş Komandanın döyüş əmrinin əsgəri olacağı günü gözləyirdim. Bu əmr kursantların döyüş əzmini, qələbə ruhunu kükrədəcəkdi. Biz də döyüşlərdə iştirak etməyə niyyətli idik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birmənalı şəkildə qətiyyətlə dedi: "Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcək". Bu qətiyyət düşməni sülh danışıqlarına cəlb etməli idi. Ancaq işğalçılıq niyyəti buna imkan vermədi. Status-kvonu saxlamaq istəyən Ermənistan müxtəlif vaxtlarda, müxtəlif istiqamətlərdən Azərbaycanın ərazilərinə yenə hücumlar, həmlələr edir, yeni ərazilər işğal etməyə çalışırdı. Azərbaycan Ordusu düşmənin istəyini darmadağın etdi...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələri həm dövlət sərhədlərindən, həm də işğal olunan ərazilərdən hücum etdi. Azərbaycan Ordusunun bölmələri düşmənin hücumunun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Bu əməliyyat Vətən müharibəsi kimi davam etdirildi...

Tarix zamanında qala olaraq Əlincəyə görə heyrətlənib, "Gələrsən-görərsən"ə görə heyrətlənib, qala-şəhər olaraq Şuşaya görə heyrətlənib. Bu möcüzələrin heyrətindən dünyanın qaşları çatılıb.

Vətən müharibəsi başladı. Azərbaycan Ordusu Ermənistanın işğal olunan ərazilərimizdə qurduğu, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini, bu sıradan "Ohanyan səddi"ni darmadağın etdi. Azərbaycan Respublikasının Prezidenti "CNN Türk" televiziya kanalına müsahibəsində dedi: "Onlar altı xətt istehkam qurmuşdular, müdafiə zolağı qurmuşdular və oranı keçmək böyük məharət, qəhrəmanlıq tələb edirdi. Bizim hərbçilərimiz ölümə gedirdilər. Eyni zamanda, o bölgənin coğrafiyası, relyefi də onlar üçün əlverişli idi. Çünki onlar dağlarda yerləşmişdilər, bütün yüksəklikləri götürmüşdülər, biz isə aşağıdan getməli idik. İndi siz Şuşaya da gedəcəksiniz, görəcəksiniz ki, Şuşanın alınması bir möcüzə sayılır".

Bu müharibə xalqın müharibəsiydi. Döyüşlərə cəlb edilməyənlər ruhən, mənən, xəyalən döyüşənlərin sırasındaydı. Azərbaycan əsgəri döyüşə-döyüşə ruhumuzun şəhərinə - Şuşaya yaxınlaşırdı. Vətənimizin işğaldan azad edildiyini dövlət başçısı Azərbaycanı sevənlərə də, sevməyənlərə də belə təqdim etdi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq". Belə təqdimetmə ordumuzun qüdrətinə sevgidir, Azərbaycan əsgərinin Vətən sevgisinin qürurudur...

Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu Narek Gjaninyanın hələ Vətən müharibəsi başa çatmadan etirafı da Azərbaycan əsgərinin döyüş qabiliyyətinin, qələbə ruhunun, vətənsevərliyinin ifadəsidir, Şuşam mənim, könül sultanımız: "400 nəfər görürdük. Atəş açılırdı, onun ardınca daha bir qrup gəlirdi. Atəş açılırdı, ardınca ikiqat böyük qrup dalğa halında gəlirdi. Əlbəttə ki, belə bir qüvvəyə tab gətirmək mümkün deyildi".

Erməni hərbçiləri etiraf edirdi ki, Azərbaycan Ordusunun hücumunun qarşısını saxlamaqda çox acizdirlər. Bu acizlik təkcə düşmən ordusunun deyil, həm də düşmən dövlətin gücsüzlüyünün etirafı idi. Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində deyirdi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Vətən müharibəsi iştirakçısı mayor Aydın Osmanov xatırlayır: "Hər döyüşçü Şuşanın azad edilməsində iştirak etməyi, Şuşanı işğaldan azad edəcək döyüşlərin iştirakçısı olmağı arzulayırdı. Eynən bizim kimi. Daşaltıdan Şuşaya bir döyüşlük yol vardı. Bu döyüşün ağır döyüş olacağını bilirdik. Bu döyüşü də qələbə ilə başa çatdıracağımıza əmin idik...".

"Mövqe qələbələri, Daşaltının ermənilərdən təmizlənməsi döyüşçülərimizin döyüş əzmini, qələbə ruhunu kükrətmişdi. Şuşa görünürdü. Bütün əzəmətiylə görünürdü....". Bu xatırlama zabitin özünü də həyəcanlandırdı, bizi də; xatırlatma bir döyüşün tarixiydi, bir döyüşün tarixi Vətən müharibəsinin tarixiydi. Şuşa uğrunda gedən döyüşlərdən ad və emosiya ilə danışmaq mümkün deyil. Bu döyüş dünya müharibələr tarixində olan heç bir döyüşlə müqayisə oluna bilməz. Rusiya mətbuatında çoxumuz belə bir informasiya oxuduq: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar".

Şuşa işğaldan belə döyüşlərlə azad edildi!..

Müzəffər sərkərdəmiz xalqa müraciətində dedi: "Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir". Bu fikirlər ordunun şəxsi heyətinə ehtiramdır, sevgidir. Sərkərdənin ehtiramı ilə əhatələnən ordu, əlbəttə ki, qüdrətli ordudur!

Şuşa işğaldan azad edildi!

Dövlət başçısının Sərəncamı ilə 8 Noyabr - Zəfər Günü olaraq bayram elan edildi.

Zəfər bayramı vətənpərvərliyin işğalçılıq üzərində tarixi qələbəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi "...Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq" fikri də bizi 2020-ci ilin 8 noyabrının qürurunda yaşadır...

Bu günlərdə işğaldan azad edilən ərazilərimizdə əsgərlərdən eşitdiyim bir fikir düşüncələrimdən heç zaman silinməyəcək: "Şuşa ruhumuzun göyqurşağıdı!"...

**Kapitan**
**Məhəmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu"**

## “Azərbaycanın minatəmizləmə fəaliyyətlərinə beynəlxalq ictimaiyyət tərəfindən dəstəyin artırılmasına ehtiyac var”

*Ərazilərimizin kütləvi şəkildə minalanmasında Ermənistanın əsas məqsədi Azərbaycanın işğaldan azad olunan torpaqlarında quruculuq və məcburi köçkünlərimizin qayıdışı prosesinə mane olmaq, Azərbaycanın mülki şəxsləri və hərbçiləri arasında maksimum dərəcədə çox xəsarət və ölüm hallarına səbəb olmaq idi. Minanın nə məqsədlə qoyulduğunu hər kəs başa düşür. Yəni, mina nə məqsədlə qoyulmasından asılı olmayaraq, öz qurbanını gözləyir. Təəssüf ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin minalarla kütləvi şəkildə çirkləndirilməsi həyata keçirilib.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ifadə edib.

Azərbaycanın bu məsələni beynəlxalq ictimaiyyət qarşısında da qaldırdığını vurğulayan Prezidentin köməkçisi bildirib: "Biz beynəlxalq ictimaiyyətə bir daha müraciət etmək istərdik ki, bu məsələdə məlumatlandırma artırılmalıdır. Azərbaycanın minatəmizləmə fəaliyyətlərinə beynəlxalq ictimaiyyət, xüsusilə BMT və onun aidiyyəti strukturları tərəfindən də dəstəyin əsaslı şəkildə artırılmasına ehtiyac var".

Hikmət Hacıyev deyib ki, mina insanlar arasında hər hansı bir fərq qoymur. Hər bir insan onun potensial qurbanı ola bilər. Ümumiyyətlə, cəmiyyətimizdə mina təhlükəsi ilə bağlı maarifləndirmə işləri aparılır. Bundan sonra da media vasitəsilə, müxtəlif sosial media imkanlarından istifadə edərək mina təhlükəsi barədə maarifləndirmənin artırılmasına ehtiyac var ki, insanlarımız bu dəhşətli bəlanın qurbanı olmasınlar.

# “Dəmir yumruq” adlı hərbi vətənpərvərlik layihəsinə start verilib

*Gənclər və İdman Nazirliyinin, Müdafiə Nazirliyinin, Sabunçu Gənclər Evinin, Gənclərin İnkişaf və Karyera Mərkəzinin və Mübarizlər Vətənpərvərliyə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə Vətən müharibəsində şanlı Qələbənin ildönümünə və şəhidlərimizin müqəddəs xatirəsinə həsr olunan "Dəmir yumruq" hərbi vətənpərvərlik layihəsinə start verilib.*



İlk təlimdə gənc iştirakçılar əsgərin gündəlik həyatı, nizam-intizam qaydaları, kəşfiyyat, döyüş əməliyyatı taktikası və hücum növlərini öyrəniblər. Gənclər "N" hərbi hissəsində təşkil olunan infoturda hərbi tibb məntəqələrində, kazarmalarda əsgərlərimiz üçün yaradılan yüksək şərait və imkanlarla yaxından tanış olublar.





AZƏRTAC Gənclər və İdman Nazirliyinin saytına istinadla xəbər verir ki, layihənin məqsədi Vətən müharibəsində parlaq Zəfərdən sonra hərbi vətənpərvərlik istiqamətində layihələrin daha da genişləndirilməsi, gənclərin hərbi biliklərinin, fiziki hazırlığının artırılması, hərbi xidməti hələ keçməyən gənclərə zəruri məlumatların nəzəri və praktiki şəkildə ötürülməsidir.

Sonra hərbi hissədə Vətən müharibəsinin və Qafqaz İslam Ordusunun şəhidlərinin xatirəsinə ucaldılan abidələr ziyarət edilib. Həmçinin nəzəri və praktiki hissədən ibarət istehkam təlimi keçirilib, minalar, onun növləri, xüsusiyyətləri haqqında məlumat verilib. Praktiki hissədə Vətən müharibəsi iştirakçıları, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular və xidmətdə olan əsgərlərimiz tərəfindən şərti düşmən ərazisinin minadan təmizlənməsi prosesi nümayiş olunub.

Gənclər növbəti gün şərti düşmən ərazisinə keçid, maskalanma, düşmən tərəfindən müxtəlif hücumlara qarşı görüləcək tədbirlər təlimi ilə öyrəndiklərini təkmilləşdiriblər. Bunlarla yanaşı, öz sahəsinin mütəxəssislərindən kəşfiyyat və föyqəladə hal zamanı göstəriləcək ilkin tibbi yardım haqqında öyrənib, praktiki olaraq Sabunçu Gənclər Evində tətbiq ediblər.

44 gün ərzində iştirakçılara hərb haqqında ilk təsəvvür, silahlarla tanışlıq və atış dərsləri, hərbi Nizamnamə və rütbələr, ərazidə hərəkət, minadan qorunma, kəşfiyyat, ilkin tibbi yardım, mühəndis-istehkam, əlbəyaxa döyüş, silahdan müdafiə, ideoloji və psixoloji hazırlıq təlim və fəaliyyətlər keçiriləcək.

Təlim və kurslar Sabunçu Gənclər Evində, "N" hərbi hissəsində, atış meydanlarında və açıq hava məkanlarında olmaqla həftənin şənbə və bazar günləri təşkil olunacaq.

# Laçın rayonuna media-tur təşkil edilib





*Müdafiə Nazirliyi Laçın rayonunun azad olunmasının birinci ildönümü ilə bağlı media-tur təşkil edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kütləvi informasiya vasitələrinin nümayəndələri Laçın rayonu ərazisində dislokasiya olunan hərbi hissələrdə xidmət edən hərbi qulluqçuların sosial-məişət və xidmət şəraitləri ilə tanış olublar.



Hərbçilərimizin gündəlik fəaliyyəti, azad olunan ərazilərdə aparılan xidmətin məsuliyyəti, həmçinin Vətən müharibəsində göstərilən qəhrəmanlıq nümunələrini ictimaiyyətə çatdırmaq məqsədilə hərbi qulluqçulardan müsahibələr alınıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində yaradılan şəraitdən məmnunluq ifadə edən hərbi qulluqçular burada rahat xidmət apardıqlarını bildiriblər.

Hərbçilərimiz azad olunan torpaqlarımızda xidmət etməkdən qürur duyduqlarını və döyüş növbətçiliyində hər zaman ayıq-sayıq olduqlarını ifadə ediblər.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri daha iki terrorçunu ələ keçirərək ölkəyə gətirib



Türkiyənin Milli Təhlükəsizlik Təşkilatı (MİT) daha bir uğurlu antiterror əməliyyatı keçirib.

PKK-KCK terror təşkilatlarının aparıcı şəxslərindən olan Sarina Diljin ləqəbli Pərvin Arslan və digər təhlükəli terrorçu Duran Kalkanın mühafizə işlərini həyata keçirən Mazlum Jir Agiri ləqəbli Emrah Adıgüzel yaxalanaraq Türkiyəyə gətirilib.

2012-ci ildə terror təşkilatına qoşularaq İraqın şimalında fəaliyyət göstərməyə başlayan Emrah Adıgüzel sonrakı iki il ərzində PKK-KCK-nin aparıcı şəxslərindən olan Abbas ləqəbli Duran Kalkanın mühafizəsini təmin edib. Pərvin Arslan isə 2014-ci ildə terror təşkilatına qoşularaq İraqın və Suriyanın şimal bölgələrində hücum, təxribat, sui-qəsd kimi cinayətlərin törədilməsi ilə məşğul olub. Hər iki şəxs terror fəaliyyətlərini davam etdirmək üçün sonradan İran ərazisinə göndəriliblər.

Terrorçuların hansı ölkədə yaxalandıqları barədə hələlik məlumat verilməyib.

## Təl-Əviv yaşayış üçün dünyanın ən bahalı şəhəridir



İsrailin Təl-Əviv şəhəri 2021-ci ildə qiymətlərinə görə, Paris və Honkonqu qabaqlayaraq dünyada yaşayış üçün ən bahalı şəhərə çevrilib.

"The Jerusalem Post" qəzeti xəbər verir ki, bu barədə məlumat Böyük Britaniyanın "Economist Group" kompaniyasının yaşayış qiymətlərinə görə dünyanın 173 iri şəhərini tədqiq etdiyi "Worldwide Cost of Living 2021" sənədində yer alıb.

Təl-Əviv 2020-ci ildə Paris, Honkonq, Osaka və Cenevrədən sonra ən bahalı beşinci şəhər idi. Onun birinci pilləyə yüksəlməsinə İsrail milli valyutasının ABŞ dollarına nisbətdə məzənnəsinin uzunmüddətli artımı, həmçinin ərzaq məhsullarının və nəqliyyatın bahalaşması səbəb olub. Ötən il şəhərdə əmtəə və xidmətlərin orta qiyməti 1,9 faiz, bu il isə 3,5 faiz artıb.

## Yaponiya uçuş məsafəsi 1000 kilometrədək olan qanadlı raketlər istehsal edəcək



Yaponiya Müdafiə Nazirliyi hərbi gəmilərin və qırıcı təyyarələrin təchiz ediləcəyi qanadlı raketlərin uçuş məsafəsini 1000 kilometrədək artırmaq niyyətindədir.

Bu barədə dekabrın 2-də Yaponiyanın "Nikkei" işgüzar qəzeti məlumat yayıb. Qeyd edilir ki, həmin raketlər 2025-2029-cu illərdə özünümüdafiə qüvvələrinin silah-sursat bazasına daxil ediləcək.

Hazırda Yaponiya özünümüdafiə qüvvələrinin malik olduğu qanadlı raketlərin uçuş məsafəsi təqribən 100 kilometrdən çoxdur. Bildirilir ki, qanadlı raketlərin uçuş məsafəsinin artırılması Asiya-Sakit okean regionunda son vaxtlar müşahidə edilən silahlanma ilə əlaqədardır.

Əlavə olaraq qeyd edilir ki, Yaponiya Müdafiə Nazirliyi uzaq məsafəli raketlərin istehsalı barədə məsələni cari maliyyə ilində irəli sürüb və yaxın gələcəkdə hərbi gəmilərin və təyyarələrin həmin raketlərlə təchiz olunması nəzərdə tutulur. Bununla əlaqədar hazırlıq işlərinə 100 milyard yen (892 milyon dollar) vəsaitin ayrılacağı bildirilir.

Həmçinin yeni raketlərin müdafiə məqsədilə, Yaponiyaya atəş açan düşmən gəmilərinə qarşı tətbiq olunacağı qeyd edilir. Bununla əlaqədar sınaqların 2025-ci maliyyə ilində başa çatdırılması, 2026-2028-ci illərdə isə gəmi və təyyarələrin bu raketlərlə təchiz edilməsi nəzərdə tutulur.

**AZƏRTAC-ın materialları əsasında**

# Mədəniyyət beşiyi Şuşa

**"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".**

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının ümummilli lideri**

XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xan tərəfindən əsası qoyulan Şuşa Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilib. İlk vaxtlarda bu yaşayış məskəni Pənahəli xanın şərəfinə "Pənahabad", bir müddət sonra isə "Şuşa qalası" və "Şuşa şəhəri" adlandırılıb.




Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılıb. İbrahimxəlil xanın dövründə isə Şuşa qalasının divarları və strateji əhəmiyyətli qalalar tikilib. Şəhər qısa zamanda xeyli böyüyüb, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb edib. Şuşa təkcə tikililəri ilə deyil, eyni zamanda, havasının təmizliyi, saflığı və müalicəvi əhəmiyyəti baxımından da vacib hesab olunub. XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazın musiqi mərkəzinə çevrilən Şuşada dünyanın heç bir yerində bitməyən "Xarı bülbül" yetişir. Qarabağ xanlığının paytaxtı olan Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırırdılar. Şuşada dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin böyük əməyi sayəsində Azərbaycanda ilk dəfə peşəkar musiqi təhsilinin bünövrəsi qoyulub.

Şuşanın tarixini yaxşı bilən Ümummilli Lider şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Dahi lider Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Ulu öndər Heydər Əliyev Şuşanın abidələr şəhəri olduğunu, diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumağın, qədim tikililəri bərpa etməyin vacibliyini qeyd edib və bundan sonra bu şəhərin simasının gözəlləşdirilməsi, tarixi abidələrin bərpası məqsədilə mühüm işlər həyata keçirilib.

1990-cı ilin əvvəllərində Ermənistan silahlı qüvvələri xarici havadarlarının dəstəyi ilə Azərbaycanda baş verən xaos və anarxiyadan istifadə edərək ölkəmizə qarşı hücumlar təşkil edirdilər. Həmin dövrdə Azərbaycanda vahid ordunun olmaması və hakimiyyətdə olanların səriştəsizliyi nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi. 1992-ci il mayın 8-də Şuşa şəhəri də düşmən işğalına məruz qaldı. Ermənilər Şuşada Azərbaycanın tarixi mədəni irsinə aid abidələri yerləyeksan edib, şəhəri tanınmaz hala saldılar.

Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül və başqa sənətkarların yaşayıb yaratdığı Şuşa erməni işğalı nəticəsində dağıdıldı, mədəni irsinə böyük zərbələr vuruldu.

1992-ci il mayın 8-də erməni birləşmələri tərəfindən işğal edilən Şuşada 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilib, 165 nəfər yaralanıb, onlardan 150 nəfəri əlil olub, 552 körpə valideynlərini itirib, 20 mindən artıq insan doğma yuvasını tərk edərək məcburi köçkün vəziyyətinə düşüb. Əsir və girov götürülən 58 azərbaycanlının taleyi barədə hələ də xəbər yoxdur. 600-ə yaxın tarixi memarlıq abidəsi və müxtəlif təyinatlı binalar yerlə-yeksan edilib.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən təmas xəttində yerləşən mövqelərimizə və mülki yaşayış məntəqələrimizə edilən hücumlara, açılan artilleriya atəşinə cavab olaraq rəşadətli Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında uğurlu əks-hücum əməliyyatı keçirərək 1992-ci il mayın 8-də Erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şuşa şəhərini 2020-ci il noyabrın 8-də düşməndən azad etdi. Ordumuzun cəsur və peşəkar hərbi qulluqçuları şəhərə sıldırım qayalardan qalxaraq, əlbəyaxa döyüşlə Şuşanı düşməndən təmizlədi. Şəhərin işğaldan azad olunmasından sonra düşmən artıq Azərbaycan Ordusunun qarşısındakı acizliyini etiraf edərək noyabrın 10-da üçtərəfli bəyanatı imzalamağa məcbur oldu. Bununla da Azərbaycanın ayrılmaz bir hissəsi olan Qarabağ tamamilə işğaldan azad edildi.

Şuşa indi azad nəfəs alır. Şuşa keçmiş şöhrətinə qovuşur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə artıq şəhərdə tarixi abidələrin, yolların, kommunikasiya xətlərinin, ümumiyyətlə bütün infrastrukturun bərpası və yenilənməsi ilə bağlı mühüm işlər görülməkdədir. Şuşa yenidən mədəniyyət beşiyi olaraq dünya mədəni irsinə öz töhfəsini verməyə davam edəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamına əsasən, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib.

"Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

**Ariz CƏFƏROV**
**Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi**

# İdman

## FIDE reytinqi: Şahmatçımız Şəhriyar Məmmədyarov iki pillə irəliləyib

Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq siyahısını açıqlayıb.

Dünya reytinqində iki pillə irəliləyən təmsilçimiz Şəhriyar Məmmədyarov (2767 xal) doqquzuncu sırada qərarlaşıb. Digər şahmatçımız Teymur Rəcəbov isə bir pillə geriləyərək 2753 xalla 14-cü sırada qərarlaşıb.

Kişi şahmatçılarımızdan ilk yüzlükdə iki təmsilçimiz yer alıb. Belə ki, Qədir Hüseynov (2661 xal) 80-ci, Rauf Məmmədov (2656 xal) 86-cı pillədə yer alıblar.

Qadınların reytinq cədvəlində isə ilk yüzlükdə şahmatçılarımız Günay Məmmədzadə 2470 xalla 26-cı, Gülnar Məmmədova (2387 xal) 71-ci, Xanım Balacayeva (2376 xal) 83-cü pillədə yer alıblar.

## Taekvondo üzrə kişilər və qadınlar arasında Azərbaycan çempionatı keçiriləcək



Sumqayıt Olimpiya İdman Kompleksində kişilər və qadınlar arasında taekvondo üzrə Azərbaycan çempionatı keçiriləcək.

Yarışda 17 yaşdan yuxarı idmançılar iştirak edəcəklər. Turnirdə 100-ə yaxın taekvondoçu mübarizə aparacaq. Yarış koronavirus pandemiyası ilə əlaqədar müəyyən olunan karantin rejimi qaydalarına uyğun və bütün şərtlərə əməl edilməklə təşkil ediləcək.

Yarış zamanı idmançıların valideynləri və tamaşaçılar zala buraxılmayacaqlar.

Dekabrın 4-də start götürəcək turnir iki gün davam edəcək.

## Azərbaycan triatlonçusu Rostislav Pevtsov reytinq cədvəlində 35-ci pillədə yer alıb



Avropa Triatlon Şurası kişi idmançıların yeni reytinq cədvəlini açıqlayıb.

Azərbaycan milli komandasının üzvü Rostislav Pevtsov reytinq cədvəlində 1501,08 xalla 35-ci pillədə qərarlaşıb.

Reytinq cədvəlinə Fransa təmsilçisi Leo Bergen rəhbərlik edir. Belçikalı Marten Van Ril və Norveç təmsilçisi Kristian Blyummenfeld ilk üçlüyü tamamlayıblar.

## Azərbaycan millisi dünya çempionatının seçmə mərhələsində ilk qələbəsini qazanıb



Qadın futbolçulardan ibarət Azərbaycan milli komandası dünya çempionatının seçmə mərhələsində növbəti oyununu keçirib.

"Dalğa Arena"da Monteneqro millisi ilə qarşılaşan komandamız 1:0 hesabı ilə qələbə qazanıb.

Millimizin qolunu oyunun 24-cü dəqiqəsində Ayşən Əhmədova vurub.

Qeyd edək ki, millimiz daha əvvəl Danimarka (0:8), Malta (1:2) və Monteneqroya (0:2) məğlub olub. Rusiya seçməsi ilə keçirilən hər iki görüşdə təmsilçimiz uduzub - 0:2 və 0:4.

**AZƏRTAC-ın materialları əsasında**

## Daha bir qrup Vətən müharibəsi qazisi ən müasir 4-cü nəsil elektron protezlə təmin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3 dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Günü ərəfəsində daha bir qrup Vətən müharibəsi qazisi yüksək texnologiyalı protezlərlə təmin edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, aşağı və yuxarı ətrafları amputasiya olunan qazilərimiz əvvəlcə nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində protezləşməyə hazırlıq mərhələsi keçiblər. Həmin mərhələnin yekunu olaraq onların yüksək texnologiyalı, ən müasir 4-cü nəsil elektron protezlə təminatı həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabrından nazirlik ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanaraq ətraflarını itirən hərbçilərin yüksək texnologiyalı, elektron protezlərlə təminatı işlərini aparır. İndiyədək 164 hərbçi 173 ən müasir 4-cü nəsil elektron protezlə təmin edilib. Onlardan 149-u aşağı ətraflarını itirən qazilərdir. Vətən müharibəsi qazilərinə təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. İstifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, qeyri-bərabər səthlərdə addımlamağa, müxtəlif məkanlarda maneəsiz dönməyə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.

Digər 15 nəfər isə yuxarı ətraflarını itirən qazilər "ÖSSUR Touch Bionics" protezləri ilə təmin olunub. Həmin protezlər yuxarı ətrafları amputasiya olunan şəxslərə xüsusi proqram təminatı vasitəsilə sosial həyata daha tez və rahat inteqrasiya imkanı yaradır. "ÖSSUR i-Limb Ultra" bioelektrik əl darağının 18 fərqli tutma variantı mövcuddur. Komplektə istifadəçinin seçiminə uyğun fərqli rəng və ölçülərə malik 6 silikon əlcək də daxildir.

Kapitan Nəsirov Elçin Əbülfəz oğluna məxsus MN № 0039187 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Salahlı Azər Natiq oğluna 2019-cu ildə verilən şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Kərimli Vüqar Ələmşad oğluna məxsus № 058506 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 785
Nüsxə 4044